Fikrət Əmirov

# Azərbaycan elləri



Azərbaycan bəstəkarlıq məktəbinin parlaq siması olan, professional musiqi sənətində özünəməxsus dəsti-xətti ilə seçilən, musiqi mədəniyyətimizi dünya miqyasında tanıtdıran Fikrət Əmirov çoxşaxəli yaradıcılığı ilə seçilir. Onun musiqi xəzinəsində demək olar ki, bütün janrlara rast gəlmək olar. Yaratdığı hər bir əsərdə isə xəlqilik, milli ruh, incə lirizm, axıcı və yaddaqalan melodiya, humanistlik, səmimilik və emosionallıq özünü biruzə verir. Təsadüfi deyil ki, XX əsrin görkəmli rus bəstkarı Dmitri Şostakoviç bəstəkar haqqında qeyd edirdi: "Fikrət Əmirov musiqisinin canı melodiyadadır".

Xalqını, ölkəsini, torpağını sevən bəstəkar olaraq əsərlərinin hər birində dahi bəstəkarımız, müəllimi Üzeyir bəy Hacıbəylinin yolunu layiqincə davam etdirmişdir. "Xalq üçün yazıb-yaratmaq, onunla birlikdə nəfəs alıb işləmək sənətkar üçün ən böyük səadətdir". Bəstəkarın bu sözləri onun yaratdığı əsərlərdə öz sübutunu tapır. Fikrət Əmirov musiqisində Azərbaycan mövzusu qırmızı xətt kimi keçir. Ümummilli lider Heydər Əliyev onun "Azərbaycan kapriççiosu" haqqında söyləyirdi: " Mən hər dəfə bu əsəri dinləyəndə gözlərim önündə Azərbaycanımız canlanır: onun gölləri, çayları, dağları.."

Bəstəkarın yaradıcılıq irsində vokal janrının da özünəməxsus yeri vardır. Belə ki, o, mahnı və romans janrında da parlaq boyalı, lirik ifadəliliyi ilə ürəkləri riqqətə gətirən, bugünə qədər sevilən və ifa olunan romansların və çoxsaylı mahnıların müəllifidir. «Azərbaycan elləri», «Reyhan», «Gülür ellər», «Mən səni araram», «Göygöl», «Sevdiyim yarım mənim», «Neyləmişəm», «Aslanın mahnısı», «Toy mahnısı», «Saqinin mahnısı», «Gülərəm gülsən», «Gülüm» və adlarını sadalamadığımız daha neçə-neçə gözəl melodiyaları ilə seçilən musiqi nümunələri...

Mahnı-romans janrında yaratdığı "Azərbaycan elləri" gözəl şeirləri ilə ədəbiyyatımıza incilər bəxş edən Mirvarid Dilbazinin sözlərinə yazılmışdır. Bu əsərdə də "Azərbaycan" mövzusu bəstəkarın musiqisində leytmotiv kimi keçir.

Fikrət Əmirovun ən məşhur mahnılarından biri olan Mirvarid Dilbazinin sözlərinə yazılmış "Azərbaycan elləri" mahnısı yeddi hecalı mətnə əsaslanan nəqəratsız formadadır. Mahnının maraqlı xüsusiyyətlərindən biri də odur ki, o, ənənəvi olaraq tonika pərdəsində deyil, onun bir oktava yuxarıda uzadılmış səslənməsi ilə tamamlanır.

Əsəri klassik opera səhnəmizin ilk qadın ifaçılarından və görkəmli nümayəndələrindən biri olan Firəngiz Əhmədovanın ifasında

sizə təqdim edirik. Bu mahnı-romans bu gün də müxtəlif vokal ifaçıların - Xalq artistləri Qərinə Kərimova, Gülnaz İsmayılova, Əməkdar artist Anar Şuşalı və başqalarının repertuarında geniş yer tutur və daim müraciət olunur. Bu da əsərin bütün zamanlar üçün aktual olmasından və sevilməsindən irəli gəlir. Mahnının tam mətnini, not yazısını və audio yazısını sizə təqdim edirik.

**Nuray ƏLİYEVA**
*Musiqişünas*

**Musiqi: Fikrət Əmirov**
**Sözləri: Mirvarid Dilbazi**

*Könül necə gülməsin, şad günündə can Vətən !*
*Əlində xalq bayrağı keçdin odlardan, Vətən!*

*Sənə qurban, canımız, canımız, canımız.*
*Azərbaycan elləri! Azərbaycan elləri!*

*Yeni zəfər gülləri,*
*Qoy bəzəsin illəri,*
*Ömür sənin, gün sənin,*
*Azərbaycan elləri!*

http://meneviservetimiz.az/az/2012-05-27-06-30-20/simfonik,-instrumental-v%C9%99-vokal-%C9%99s%C9%99rl%C9%99r/item/328-fikr%C9%99t-%C9%99mirov-az%C9%99rbaycan-ell%C9%99ri-romans%C4%B1